1_Layout 1 14.02.2022 12:51 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 3 (617)

15 fevral
2022-ci il

Qəzet 1992-ci il
dekabrın 16-dan
nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Ağcabədidə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yeni inşa edilən hərbi şəhərciyinin açılışı olub

## Tədbirdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Vilayət Eyvazov bildirdi ki, ərazisi 6,2 hektar olan hərbi şəhərciyin inşasına 2019-cu ilin sentyabrında başlanılıb. Tikinti işləri ötən ilin noyabrında uğurla başa çatdırılıb.



Qeyd olundu ki, hərbi şəhərcikdə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi üçün qərargah, 3 əsgər kazarması, zabitlər üçün beşmərtəbəli və ikimərtəbəli 84 mənzilli 2 yataqxana, 2 yeməkxana, tibb, qarovul, texniki nəzarət-buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri mühəndis-kommunikasiya, o cümlədən, elektrik və su təchizatı, havalandırma, yanğın-siqnalizasiya, rabitə-informasiya və video-müşahidə sistemləri ilə təchiz edilib.

Binalar zəruri mebel və inventarla təmin edilib, ehtiyat elektrik təchizatı mənbəyi olaraq generator və stabilizator qurğuları quraşdırılıb. Şəhərciyin daxilində və ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Prezident, Ali Baş Komandan hərbi şəhərcikdə qərargah, əsgər yataqxanaları, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, şəhərcikdə xidmətin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və hərbi texnikaya baxdı.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Daxili Qoşunların xüsusi təyinatlıları Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Daxili Qoşunlar Daxili İşlər Nazirliyinin ayrılmaz tərkib hissələrindən biri kimi cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm və strateji əhəmiyyətli dövlət obyektlərinin mühafizəsini həyata keçirməyə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.








# XALQIMIZIN QAN YADDAŞI - XOCALI SOYQIRIMI

## Bu dəhşətli faciədən 30 il ötür

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülüb.






1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerlə yeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən, 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Bəşəri cinayət olan Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətidir.

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən, 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımı haqqında deyib: "Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə, ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Bununla əlaqədar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə yad edilir.

**president.az saytının materialları əsasında hazırlanıb**

2_Layout 1 14.02.2022 12:59 Page 1



# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Fevralın 5-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.





Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# "GÖSTƏRİLƏN ETİMADI HƏR ZAMAN DOĞRULTMAQ ƏZMİNDƏYİK"

İstənilən hava şəraitində xidmətin ayıq-sayıq aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Sadalanan bu və digər müsbət keyfiyyətləri Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin komendant bölüyünün hərbi qulluqçularında görmək olar.

Döyüş Bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsi bölüyün fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir.

Bölük komandiri kapitan Sənan Baxışov söylədi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilməzdən öncə bölük komandiri və onun müavinləri tərəfindən şəxsi heyət təlimatlandırılır, hərbi nizamnamələrin müvafiq maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilməzdən əvvəl hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır.

Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli və məsuliyyətli olduğunu diqqətə çatdıran komandir döyüş xidmətinə seçilən hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlıqlarının nəzərə alındığını bildirdi. Məlumdur ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən kapitan S.Baxışov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi, onların hərbi bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi.








Bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Əmrah Qafarlı ilə birgə qarovul məntəqəsində olarkən ayıq növbə ilə qarovul xidmətinin xüsusiyyətləri, nizam-intizamın qorunub saxlanılması mövzusunda söhbətlər apardım. Əsgərlərin yüksək döyüş və vətənpərvərlik ruhuna malik olmaları, Daxili Qoşunlarda xidmətləri ilə fəxr etmələri aydın hiss olunurdu. Funksional vəzifələri ilə yanaşı, Daxili Qoşunların və xidmət etdikləri hərbi hissənin tarixi, zəngin döyüş yolu barədə suallara da düzgün cavab verdilər.

Bölük komandiri komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından çavuş Kənan Səfərov, baş əsgərlər İsmayıl Cəfərli, Rəvan Hüseynov, Orxan Mustalızadə və əsgər Nəsimi Abbaszadənin adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

Sonda bölük komandiri şəxsi heyətin mövcud hərbi intizamı və döyüş hazırlığını qoruyub saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmində olduğunu vurğuladı.

**kapitan Xədicə Hacızadə**

# ƏRAZİ BÜTÖVLÜYÜMÜZ UĞRUNDA GEDƏN DÖYÜŞLƏRDƏ ŞANLI ZƏFƏRƏ İMZA ATAN XÜSUSİ TƏYİNATLILARIMIZ

Yarandığı gündən etibarən zəngin xidmət yolu keçərək böyük təcrübə toplayan, döyüş təlimi və xidmət səviyyəsinin artırılması istiqamətində ciddi irəliləyişlərə nail olan, Birinci və İkinci Qarabağ müharibələrində düşmənə qarşı gedən döyüş əməliyyatlarında cəsurluq nümayiş etdirən hərbi hissələrimizdən biri də 67987 saylı hərbi hissədir. Vətən müharibəsinin ilk günündən hərbi hissənin "Kobra" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin ön cəbhədə döyüşlərdə olduğu artıq hər birimizə məlumdur.

Hərbi hissə komandiri polkovnik Xaliq Eyvazovla söhbət əsnasında məlum oldu ki, hissədə keçən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına və hərbi intizamın vəziyyətinə görə birincilik qazanan bölmə xüsusi təyinatlı dəstədir.

Polkovnik X.Eyvazov hərbi hissə üzrə fərqlənməyin səbəblərini açıqlayarkən, uğurlu nəticənin kompleks şəkildə qazanıldığını bildirdi. Hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi, keçirilən məşğələlərin dərindən mənimsənilməsi, onlarda şücaət və dözümlülük kimi vərdişlərin formalaşdırılmasında xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Fariz Məmmədov və dəstə komandirinin müavini-qərargah rəisi mayor Nemət Ağayevin böyük zəhməti olduğunu vurğuladı.





Xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi barədə danışan mayor N.Ağayev müxtəlif iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsinin xüsusilə diqqət mərkəzində saxlanıldığını nəzərimizə çatdırdı: "Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, yüksək icraçılığa və sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".

Dəstə komandirinin müavini-qərargah rəisi xüsusi təyinatlıların göstərdiyi döyüş qabiliyyətinin onlarla keçirilən təlim və məşqlərin, təşkil olunan kursların bariz nəticəsi olduğunu söylədi. Qeyd etdi ki, məşğələlər xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, hərbi mühəndis hazırlığı, ləpirçilik, həmlə-desant hazırlığı mövzularında keçirilir: "Bu zaman hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən, döyüş qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə xidmət edir".

Onun sözlərinə görə, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Hərbçi ailəsində dünyaya gələn zabit atasının Birinci Qarabağ müharibəsi veteranı olduğunu bildirərək, onun davamçısı kimi hərbçi peşəsinə marağının təsadüfi olmadığını nəzərimizə çatdırdı.

Əsas etibarilə dəstənin hərbi qulluqçularının Vətən müharibəsindəki şücaətini göz önündə canlandıran mayor N.Ağayev məhz həmin günlərdə illərlə qazanılan təcrübənin döyüş meydanında əks olunduğunu, keçirilən təlimlərin o zaman fayda verdiyini deməyi də unutmadı: "44 günlük Vətən müharibəsində hərbi hissənin xüsusi təyinatlıları qəhrəmanlıq nümunələri göstərərək milyonlarla insanın sevgisini, rəğbətini qazandılar. Torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsində dəstənin şəhidlik zirvəsinə yüksələn 9 nəfər igid döyüşçüsü – baş leytenant Kamran Kazımov, baş çavuşlar Vüqar Cəfərov, Əsgər Əhmədov, çavuşlar Orxan Ömərov, Ceyhun Rzayev, Tərlan Eyniyev, Hilal İmanzadə, Elvin Məmmədov, kiçik çavuş Mikayıl Mikayılzadə xalqımızın yaddaşında əbədi yaşayacaqlar. Bu müharibədə xüsusi təyinatlılar düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, onlarla zirehli texnikasını və şəxsi heyət, silah-sursat daşıyan avtomobilini sıradan çıxarıb, müdafiə postlarını, atəş nöqtələrini dağıdıblar. Döyüşlər zamanı xüsusi təyinatlılardan 25 nəfər yaralanıb. Bu döyüşçülər yaralansalar da, döyüşü davam etdirib, qorxu bilmədən, cəsurluqla sonacan düşmənin üzərinə həmlə ediblər".

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş dəstənin xüsusi təyinatlıları müxtəlif orden və medallarla təltif ediliblər.

Müharibə bitsə də, bu gün hər zaman olduğu kimi, xidmətin layiqincə aparılması, məşğələlərin tam keyfiyyətlə təşkil olunub keçirilməsi bölmə komandirinin nəzarətindədir.






Düşməndən azad etdiyimiz torpaqlarda daha da möhkəmlənmək, düşmənə yeni təxribatlar yaratmağa imkan verməmək üçün xüsusi təyinatlıların hazırlanması prosesi ən ümdə vəzifələrdən biridir. Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçularının peşəkarlıq vərdişlərinin artırılması məqsədilə həm keçən il, həm də bu il baş leytenantlar Fərid Ağayev, Natiq Məmmədov Türkiyənin İzmir şəhərində Komando təməl kursunda iştirak ediblər.

Hər zaman birincilər sırasında olmağa iddialı olan xüsusi təyinatlı dəstənin hər bir üzvünə biz də, öz növbəmizdə, uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 14.02.2022 13:00 Page 1



2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının parlaq qələbəsi ilə başa çatdı. Şəhid olmuş və yaralanmış igid oğullarımızın qanı və canı bahasına qazanılan bu qələbə hərb tariximizin şanlı səhifəsi kimi əbədi yaşayacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vurğuladığı kimi: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

*Şəhidlərimiz*

# ƏSLƏN KƏLBƏCƏR RAYONUNDAN OLAN SEYMURUN ƏN BÖYÜK ARZUSU DOĞMA YURDUNU GÖRMƏK İDİ

Müqəddəs amal uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksələn vətənpərvər oğullarımızdan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur hərbi qulluqçusu baş çavuş Həsənli Seymur Qələndər oğludur.

Baş çavuş Seymur Həsənli 1993-cü il noyabrın 9-da Yevlax rayonunun Nurallar kəndində anadan olub. Qələndər Həsənovun və Niyar Həsənovanın böyüdüb tərbiyə etdikləri iki övladdan (Arzu və Seymur) biri, həmçinin, ailənin sonbeşiyi idi.

Seymur erməni vəhşiliyinin soydaşlarımızın həyatına vurduğu ağrı-acını, taleyin amansız hökmünü hələ kiçik yaşlarından hiss etməyə və yaşamağa məcbur olmuşdu. Bunun əsas səbəbi erməni işğalı nəticəsində Həsənovlar ailəsinin, digər soydaşlarımız kimi, yaşadığı ağır məcburi köçkünlük həyatı idi. Əslən Kəlbəcər rayonunun Abdullauşağı kəndindən olan Həsənovlar ailəsi erməni qəsbkarlarının doğma yurdlarını işğal etmələri səbəbindən 1993-cü ilin aprel ayının 2-də Yevlax rayonunun Nurallar kəndinə pənah gətirməli olmuşdur. O zaman ailənin böyük övladı olan Arzunun hələ bir yaşı belə tamam olmamışdı. Seymur Nurallar kəndində doğulmuş və altı yaşınadək burada, ondan bir yaş böyük olan bacısı Arzu ilə birgə min bir əzab-əziyyətlə böyüyüb boya-başa çatmışdır. Burada sosial-məişət şəraitləri yaxşı olmadığından, övladları təhsil almaq yaşına çatanda Həsənovlar ailəsi rayonun Malbinəsi kəndinə köçməli olmuşdu. Bu baxımdan Seymur orta təhsilini Nizami Gəncəvi adına Malbinəsi kənd tam orta məktəbində almışdı.

Məcburi köçkünlük həyatının yaratdığı bir sıra çətinliklər fonunda valideynlərinin acı həsrətlə tez-tez xatırladıqları doğma



dədə-baba yurdu olan Abdullauşağı kəndini görmək isə cəsur silahdaşımızın ən böyük arzularından biri idi. Buna görə də işğal altında olan qədim yurd yerlərimiz, o cümlədən, Kəlbəcər rayonunun füsunkar təbiəti barədə ailə üzvlərinin və yaxın qohumlarının xatirələrini həmişə böyük maraqla dinləyir, hər dəfəsində "İnşallah, gedib görərik" - deyirdi. Bu kimi söhbətlər, təbii ki, uşaq yaşlarından vətənpərvər ruhda böyüyüb tərbiyə alan Seymurun həm qəlbini göynədir, həm də düşmənlərimizə olan sonsuz nifrət hissini daha da alovlandırırdı.

Ailəsinin verdiyi məlumata görə, hələ orta məktəbdə oxuyarkən olduqca tərbiyəli, pis vərdişlərdən uzaq, ev-eşiyə bağlı bir uşaq kimi bütün işlərində valideynlərinə dəstək olub. Bununla yanaşı, uşaq yaşlarından hərbçi peşəsinə böyük maraq göstərdiyindən, 2012-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılan zaman böyük qürur hissi ilə hərbi xidmətə yola düşüb.

Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin yanvar ayından 2013-cü ilin iyul ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25033 saylı hərbi hissəsinin komendant bölüyündə keçib.

Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbçi peşəsinə olan böyük marağı səbəbindən yenidən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2014-cü ilin may ayında Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin artilleriya divizionunda heyət rəisi vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan Seymur Vətənə olan borcunu ləyaqətlə yerinə yetirməyə başlayıb. 2016-cı ilin aprel ayından etibarən hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş S.Həsənli xüsusi həmlə qrupunda pulemyotçu, 2020-ci ilin may ayından şəhidlik məqamına yüksəldiyi günədək isə 17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunda pulemyotçu vəzifəsində xidməti-vəzifə borcunu şərəflə yerinə yetirib.

17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunda yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Xəlil İsayev Seymuru əsl vətənpərvər döyüşçü kimi xarakterizə edərək, cəsur silahdaşı ilə hər zaman qürur duyduğunu bildirdi: "Baş çavuş S.Həsənli haqqında yalnız müsbət fikirlər söyləmək olar. Seymuru hələ 2015-ci ildə 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində birgə xidmət etdiyimiz dövrdən tanıyırdım. Tale elə gətirdi ki, 2020-ci ilin may ayından 17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunda yenidən onunla birgə xidmət etməli olduq. O zaman olduğu kimi, Seymur bu dəfə də komandiri olduğum yarımqrupda pulemyotçu vəzifəsində xidmət edirdi. Vətən müharibəsi başlayanda isə elə eyni qrupun xüsusi təyinatlısı kimi döyüşlərdə iştirak etdik.

Olduqca nizam-intizamlı və vətənpərvər hərbi qulluqçu idi. Həm bir yoldaş, həm də əsl xüsusi təyinatlıya xas olan müsbət xarakterik xüsusiyyətləri ilə kollektiv arasında hörmət və nüfuz qazanmışdı. Məhz buna görə də xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılmışdı.

Tərkibində Seymurun da vuruşduğu qrupumuzun cəsur xüsusi təyinatlıları Füzuli, Xocavənd rayonlarının və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstəriblər".

**5 noyabr 2020-ci il...** Şuşa şəhəri ətrafında gedən döyüşlərdən biri Seymurun son döyüşü oldu. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını mərdliklə yerinə yetirən igid silahdaşımız bu döyüşdə də pulemyotçu kimi öz sərrast atəşi ilə ermənilərin xeyli sayda canlı qüvvəsini cəhənnəmə vasil



etdi. Lakin düşmənin atdığı qumbaraatan mərmisinin yaxınlığında partlaması nəticəsində baş çavuş S.Həsənli ağır qəlpə yarası alır. Yoldaşları tərəfindən ona ilkin tibbi yardım göstərilməsinə baxmayaraq, həyatını xilas etmək mümkün olmur. Noyabrın 6-na keçən gecə cəsur döyüşçümüz gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.

Subay idi. Müharibədən bir il öncə nişanlanmışdı. Hətta toy gününü noyabrın 8-nə müəyyənləşdirsə də, amansız müharibənin başlaması səbəbindən ailəsi bu xeyir işi təxirə salmalı olmuşdu. Şəhid anası Niyar xanım qeyd etdi ki, elə məhz noyabrın 8-də Seymurun şəhid olma xəbərini alsalar da, buna qətiyyən inanmayıblar. Çünki Seymur müharibədə iştirak etməsini doğmalarından gizlətmiş, oktyabrın 31-də sonuncu dəfə anası ilə telefonla danışanda belə, ondan nigaran qalmasınlar deyə, Bərdə rayonunda təlimlərdə iştirak etdiyini demişdi...

Vətən müharibəsi iştirakçısı, MAXE əsgər Babək Süleymanov ən yaxın dostu olmuş Seymurla bağlı son məqamları müharibənin ən ağrılı xatirələri kimi heç zaman unutmayacağını dedi: "Olduqca vətənpərvər, dostluqda və yoldaşlıqda çox möhkəm bir insan idi. Vətən müharibəsində iştirak etməsi ilə qürur duyurdu. Əslən Kəlbəcərdən olduğu üçün ən çox bu rayondan danışardı. Tezliklə işğal altında olan doğma yurdlarını azad etdikdən sonra ailə həyatı quracağını deyirdi. Ailə üzvlərindən daha çox bacısı oğlu Amin üçün bərk darıxırdı. Deyirdi ki, kaş müharibə tez bitərdi, gedib onu bağrıma basıb öpərdim.

Biz də qrup şəklində onun toyuna hazırlaşırdıq. Lakin amansız müharibə buna imkan vermədi. Kollektivimiz indiki kimi hər zaman çox mehriban olub. Onu da qeyd edim ki, bizimlə birgə qrupumuzda xidmət edən döyüşçü yoldaşımız çavuş Vüqar Həsənov yeni doğulan övladına şəhid silahdaşımız Seymurun adını verib. Nə deyim? Seymur qardaşımızın timsalında Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 11-də Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. 18 noyabr 2020-ci il tarixdə Qəbələ regional "ASAN xidmət" mərkəzinin Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən ölüm haqqında şəhadətnamədə igid silahdaşımızın 9 noyabr 2020-ci ildə Şuşada, hərbi əməliyyatlar nəticəsində partlayış və qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il tarixli və 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Həsənli Seymur Qələndər oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Məlumat üçün bildirək ki, Seymurun ailə üzvlərinin xatirələri əsasında "İctimai TV"nin "YouTube" internet portalı vasitəsilə yayımlanan "Şuşa döyüşlərində şəhidlik zirvəsinə yüksələn baş çavuş Seymur Həsənli" adlı süjetdə şəhid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu işıqlandırılıb.

Həsənovlar ailəsinin təşəbbüsü ilə Malbinəsi kəndində şəhidin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb.

Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn Seymur kimi cəsur oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

44 günlük Vətən müharibəsindən sonra müxtəlif ictimai yerlərdə neçə-neçə vətəndaşımızın qazilərimizə yaxınlaşaraq minnətdarlığını bildirməsinin və rəğbətini ifadə etməsinin şahidi olmuşam. Hətta bir dəfə sinəsi orden və medallı İkinci Dünya müharibəsi veteranının qazilərə dediyi "var olun, bu ləkəni üzərimizdən sildiniz, düşməni diz çökdürdünüz, biz ağsaqqallar bundan sonra rahat vicdanla haqq dünyasına köçə bilərik" sözləri məni və ətrafdakıları çox təsirləndirib.

*Qazilərimiz*

# MUROVDAĞIN AŞIRIMLARI VƏ ZİRVƏLƏRİNDƏ CƏSUR DÖYÜŞÇÜ KİMİ VURUŞDU...

Həqiqətən də qazilərimiz belə hörmətli münasibətə layiqdirlər. Əlil arabasında, üzərində protezlər, əli əsalı və yaralanma, xəsarətalma ilə bağlı digər vəziyyətlərdə gördüyümüz qazilərimiz torpaqlarımızın işğaldan azad olunması naminə sağlamlıqlarını itiriblər. Onlarla söhbət etdikdə "Vətən üçün canımız da fəda olsun" deyirlər. Belə cəngavər oğullar yetişdirmiş xalq yenilməzdir.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Kənan Vahidli qısamüddətli döyüş yolu keçsə də, müharibə acıları onu dərindən sarsıdıb.

O, 1996-cı il yanvarın 25-də Ucar rayonunun Yuxarı Şilyan kəndində doğulub. Vahid Vahidov və Rəsmiyyə Vahidovanın yeganə oğul övladı olan Kənanın bir bacısı var. Atası Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Bu kəndin 12 nəfər sakini Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalıb. Kənan doğma kəndində yerləşən şəhid Təhmiraz Cavadov adına tam orta məktəbin məzunudur. Ailədə və orta məktəbdə vətənpərvər ruhda tərbiyə aldığını söylədi. Orta məktəbdə oxuduğu illərdən hərbçi peşəsinə rəğbət bəslədiyini vurğuladı. Döyüş sınaqlarından keçmiş atasının müharibə ilə bağlı xatirələrini həmişə maraqla dinlədiyini bildirdi. Qeyd etdi ki, yeniyetmə yaşlarından daim fiziki hazırlığına ciddi diqqət yetirib, idmançı olmasa da, fərdi halda idman məşqlərinə həvəslə yanaşıb.

2014-cü ilin yanvar ayında Kənan müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında hərbi xidmət keçib. 2015-ci ilin iyul ayında hərbi xidmətdən tərxis edilib.

2016-cı ilin fevral ayının 13-də öz müraciəti əsasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16073 saylı hərbi hissədə əvvəlcə xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı, sonra isə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda heyət nəfəri, atıcı və pulemyotçu vəzifələrinə təyin edilərək əzmkarlığı, icraçılığı, funksional vəzifələrini məsuliyyətlə yerinə yetirməsi ilə komandanlığın etimadını doğruldub. Hərbi xidməti dövründə dəfələrlə mükafatlandırılıb. Təlimlərdə döyüş hazırlığının artırılmasına çalışıb, silah və xüsusi vasitələrdən məharətlə istifadə etməyi bacarıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb. Ümumilikdə, xüsusi təyinatlı məsləyinə sadiq olan hərbi qulluqçu kimi fərqlənib.

Müxtəlif qoşun növlərinə aid xüsusi təyinatlı bölmələrin təlim toplanışında iştirak edən Kənan taktiki hazırlıq elementləri üzrə gərəkli biliklərə yiyələnib. Xüsusi təyinatlının praktiki göstəriciləri də müsbət xarakterizə olunub.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Kənan ön cəbhəyə ilk göndərilən döyüşçülərin sıralarında olub. Onun döyüş yolu 27-29 sentyabr tarixlərində Murovdağ ərazisindən keçib. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin və Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrinin hərbi qulluqçularından daxil olduqları qrupun tərkibində mürəkkəb relyefə, soyuq iqlimə malik Murovdağın aşırımları, sıldırım qayalı



yüksəkliklərində düşmənə qarşı mətinliklə vuruşub. Pulemyot silahından açdığı sərrast atəşlə təcavüzkarın canlı qüvvəsini itkiyə uğradıb.

Vətən müharibəsi iştirakçısı, 12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşən Məmmədov Kənanın xidmət və döyüş yolu barədə məlumatlı olan hərbi qulluqçulardan biridir. O bildirdi ki, Kənan öz vəzifələrinin öhdəsindən bacarıqla gələn, hər bir vəziyyətdə gücünü səfərbər edə bilən hərbi qulluqçu olub: "Mən ona deyirdim ki, səndən yaxşı yarımqrup komandiri olar. Bir dəfə yarımqrup komandirini necə əvəz etdiyini görmüşdüm. Döyüşlərdə də çox ürəkli hərbi qulluqçu kimi düşmənin üzərinə irəliləyib".

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, Vətən müharibəsi iştirakçısı çavuş Fariz Abbasov məlumat verdi ki, Kənanı döyüşlərdən əvvəl, taktiki təlimlər zamanı tanıyıb. Təlimlərdə Kənan pulemyotçu, Fariz isə pulemyotçu köməkçisi kimi fəaliyyət göstərib. Fəal iştirak etdikləri təlimlər onların xüsusi təyinatlı kimi döyüş qabiliyyətlərini artırıb.

Hərbi qulluqçu danışdı ki, Kənan və digər döyüşçülərlə birlikdə müharibə zamanı Murovdağ silsiləsinin Camış zirvəsi istiqamətində hərəkətə başlayıblar. Bir neçə gün ərzində düşmənin mövqelərinə həmlələr edilərək ona tutarlı atəş zərbələri endirilib. Kənan əlində pulemyot silahı, üzərində sursat ehtiyatı, zirehli geyimi və digər zəruri əşyalarla yüksəkliyə doğru heç bir tələskədən çəkinmədən qalxıb. Döyüş tapşırığının yerinə yetirmək üçün iradəli və qətiyyətli davranıb. Ağır yaralanmasaydı, qarşıdakı döyüşlərdə də işğalçıların izini torpaqlarımızdan siləcəkdi.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı, şəhid qardaşı çavuş Mirzəhməd Məmmədov dedi ki, Kənan təmkinli, səbirli, yoldaşlarına qayğıkeş, ruh yüksəkliyi ilə döyüşən hərbçi kimi seçilirdi. Döyüş tapşırığına dair hər bir detala diqqətlə yanaşırdı. Onun sözlərinə görə, Murovdağda döyüşməyin öz çətinlikləri vardı, düşmən əlverişli yüksək mövqelərdə yerləşmişdi. Ermənilərin artilleriyası bizim qüvvələrin keçə biləcəyi aşırımları, dərələri, zirvələrin ətrafını şiddətli atəşə tuturdu. Xüsusi təyinatlı bildirdi ki, sentyabrın 29-da Camış zirvəsi istiqamətindən atılan minaatan mərmisi onun və Kənanın bir neçə metrliyində partlayıb, nəticədə hər ikisi qəlpələrdən yaralanıb. Kənanın sol ayağı ciddi zədələndiyindən durumu ağır idi. Silahdaşları ilk tibbi yardım göstərərək Kənanı döyüş zonasından çıxarıblar. Ümumilikdə, həmin vaxt düşmənin artilleriya vasitələrindən atəş nəticəsində döyüşçülərdən bir nəfər şəhid olub, on nəfərdən çoxu isə müxtəlif dərəcəli yaralanıb və xəsarət alıb.

Qazi müxtəlif xəstəxanalarda müalicə olunub. Tibbi sənədlərdə Kənanın 29 sentyabr 2020-ci il tarixdə yaralandığı barədə qeydlər öz əksini tapıb. Həkimlər tərəfindən qaziyə "partlayış travması, odlu silah qəlpə yaralanması, sol baldırın yuxarı 1/3-nin açıq, çoxqəlpəli, yerdəyişmiş sınığı, sümük defekti ilə, sol baldırın sinirlərinin iflici və parezi, sol 1-ci, 2-ci, 3-cü barmaqların qanqrenası, sol budun aşağı 1/3 nahiyəsindən amputasiyası cərrahi əməliyyatından sonrakı formalaşdırılmış güdülü, sağ qoltuqaltı, sağ bud, sağ baldır, sol bud nahiyələrinin yumşaq toxumalarının çıxarılmamış yad cisimləri (metal qəlpələr)" diaqnozu qoyulub. Hərbi qulluqçumuza II qrup əlillik dərəcəsi verilib, səhhəti ilə əlaqədar hərbi xidmətdən ehtiyata buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş K.Vahidli "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə", bundan əlavə, Azərbaycan Respublikası müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli aidiyyəti əmrinə əsasən "Şücaətə görə" medalları ilə təltif olunub.

Müharibə sınağından keçərək atasının döyüş yolunu ləyaqətlə davam etdirmiş qazimiz evlidir, doğma kəndlərində yaşayır. Müasir tipli protezlə təmin olunub. Silahdaşları həmişə onunla əlaqə saxlayırlar. Həmkəndliləri də mənəvi dəstəklərini əsirgəmirlər.

Vətən naminə hər bir fədakarlıq cəmiyyət üçün dəyərli örnəkdir.

**Yalçın Abbasov**

4_Layout 1 14.02.2022 13:03 Page 1



# BÖLMƏ QARŞIYA QOYULAN TAPŞIRIQLARI VAXTINDA VƏ DÜZGÜN İCRA EDİR



17072 saylı hərbi hissənin qərargahında şəxsi heyətin uçotu üzrə bölmə xidməti fəaliyyəti ilə fərqlənir.

Qərargah rəisinin şəxsi heyətin uçotu üzrə baş köməkçisi mayor Pərviz Qocayev görülən işlər barədə məlumat verərkən bildirdi ki, bölmə işini daxili işlər nazirinin və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmrlərinə, eləcə də müvafiq təlimatın tələblərinə əsasən təşkil edir.

Mayor P.Qocayev "Şəxsi heyətin uçotu üzrə Təlimat"ın tələblərinə uyğun olaraq, hərbi hissədə şəxsi heyətin uçotunun təşkil edilməsi və aparılmasına cavabdehlik daşıyır. O, həmçinin, nizami hissə üzrə əmr layihəsi, gündəlik döyüş məsrəfi, şəxsi heyət barədə müəyyən edilmiş məlumatları vaxtlı-vaxtında hazırlayır və hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisinə məruzə edir.

Söhbət zamanı məlum oldu ki, bölmə tərəfindən rüb ərzində bir dəfədən az olmayaraq bölmələrdə şəxsi heyətin uçotunun vəziyyəti, hərbi qulluqçuların hərbi bilet və xidməti vəsiqələrindəki müvafiq qeydlər yoxlanılır, hərbi hissəyə yeni qəbul edilmiş hərbi qulluqçuların bölmələr üzrə bölüşdürülməsi hesabatları hazırlanır.

Bundan əlavə, məzuniyyət biletlərinin, ezamiyyət və göndəriş vərəqələrinin, habelə şəxsi heyətin uçotuna dair digər sənədlərin, hərbi qulluqçuların tərxis olunma sənədlərinin hazırlanması və hərbi qulluqçulara verilməsi, həmçinin, xidmət üzrə yerdəyişmələr, hərbi rütbələrin və şəxsi heyətin təltiflərə təqdim olunması da görülən işlərdəndir.

Mayor P.Qocayev dedi ki, gündəlik olaraq bölmənin hərbi qulluqçularına funksional vəzifələrinə uyğun tapşırıqlar verir və onların xidməti fəaliyyətini təşkil edir. Belə ki, qərargahda məsul icraçı (şəxsi heyətin uçotu üzrə) gizir Seymur Əliyev arxivə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə göndərilən şəxsi işləri hazırlayır, zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçularının xidməti vəsiqələrinin uçotunu aparır, qeydiyyat sənədlərinə, hərbi biletlərə, şəxsiyyətini təsdiq edən vəsiqələrə vaxtlı-vaxtında dəyişikliklər edir.

Həmçinin, həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, müddətdən artıq həqiqi hərbi xidmətə keçirilmiş və şəxsi heyətin siyahısından çıxarılmış hərbi qulluqçular barədə müvafiq qeydlər olunur. Hərbi qulluqçuların şəxsi işlərində çatışmayan sənədlərin komplektləşdirilməsi, xidməti kartalarda rekvizitlərin doldurulması, bundan əlavə, sutkalıq əmr layihələrinin hazırlanması da gizir S.Əliyevin vəzifələridir.

Digər hərbi qulluqçu - kargüzar (şəxsi heyətin uçotu üzrə) çavuş Eşqin Qasımov isə hərbi hissəyə yeni qəbul olunmuş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının hərbi biletlərinə, xidməti uçot vərəqələrinə onların şəxsi heyətin siyahısına daxil və vəzifələrə təyin edilmələri haqqında qeydlər edir.

Bir sözlə, xidməti fəaliyyətində nöqsana yol verməmək üçün bölmənin şəxsi heyəti bilik və bacarığını artırmaq istiqamətində səylə çalışır.

**kapitan Xədicə Hacızadə**

## idman

# ÇAVUŞUN QƏLƏBƏSİ






Fevralın 3-ü və 4-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə atletika üzrə 38-ci ölkə çempionatı baş tutub. Həvəskarlarla yanaşı, "Rekord", "Neftçi" və "Təhsil" idman klublarını, eləcə də Gəncə, Bərdə, İsmayıllı və Sumqayıt şəhərlərini təmsil edən ən güclü 13 idmançı yarışa qatılıb.

Atletlər qarşısında hədəf 3000 metr olub. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 17074 saylı hərbi hissəsində kitabxana rəisi çavuş Zaman Pirverdiyev həmin məsafəni 9 dəqiqə 53 saniyəyə qət etməklə çempionatın qalibi olub.

"Polis"lə qələbə sevincini bölüşən həmkarımız idmançılara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin və Daxili Qoşunların rəhbərliyinə minnətdarlığını bildirib.

**Ruslan Vəliyev,**
**polis baş leytenantı**

# AĞ ÖLÜMƏ - NARKOMANİYAYA YOX DEYİRİK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.



Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16 avqust 2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məq-



sədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi-profilaktiki işlər görülür.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2022/2023-CÜ TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – 6 dəfə, qaçış – 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə, qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi – 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi – 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2022-ci ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi, 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);
- yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;
- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Məktəbə namizədlərin ərizə və sənədlərinin qəbulu 2022-ci il mart ayının 1-dən aprel ayının 10-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

**Məlumat üçün əlaqə telefonları: (012) 590-65-07, (012) 560-27-00.**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

## Finlandiya F-35 təyyarəsi üçün ABŞ-la müqavilə imzalayacaq

Finlandiya Amerika Birləşmiş Ştatları ilə 64 ədəd F-35 təyyarələrinin alınması ilə bağlı 9,4 milyard dollarlıq müqavilə imzalamağa hazırlaşır. Ordu.az xəbər verir ki, bu barədə "Reuters" agentliyi öz mənbələrinə istinadən yazıb.



Finlandiya hökuməti 2027-ci ildə F-35 təyyarələrinin istehsalına başlayacağını bildirib.

## Banqladeş Rusiyadan AK-15 avtomatları alır



Rusiyanın "Kalaşnikov Konserni" Banqladeşə 2000 ədəd AK-15 avtomat tədarükünü elan edib. "Poliqon" xəbər verir ki, bu barədə "Kalaşnikov Konserni"nin mətbuat xidməti məlumat yayıb.

Yeni atıcı silahlar Banqladeşdə lisenziya əsasında istehsal olunmuş köhnəlmiş Çin avtomatlarını əvəz etməkdən ötrü alınır.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik Elçin Əliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000